# ŞUŞA İLİ

***(Prezidentimiz, SİLAHLI QÜVVƏLƏRİMİZİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEV Şuşanın erməni-faşist işğalından qəhrəmanlıqla azad olunması münasibətilə və görüləcək bərpa işlərinin sürətlə aparılması məqsədilə 2022-ci ili "ŞUŞA İLİ" elan etmişdir.)***



***Ramiz DUYĞUN***

***(lirik poema)***

Bu ilki ilk şeirimi
adınla başlayıram,
"Şuşa ili" adınla
Səni alqışlayıram.

İlk olaraq bu adı
Sənə verənə alqış!
Tarixi qəhrəmana,
Ərə, ərənə alqış!
Bu adınla doğulduq,
Yenidən gəldik cana!
Alqış, milyon yol alqış,
ALİ BAŞ KOMANDANA!

Tarix boyu sən əsgər,
Baş qəhrəman olmusan,
Dağ qəhrəman omusan,
Daş qəhrəman omusan!

Xaqanlar can atıbdır
Səni qamarlamağa,
Səni yeyib udmağa,
Səni yağmalamağa.
Məğrurluğun şahların
Qürurunu əyibdi.
Kökün torpaq dibində,
Eşqin xalqın qəlbində.
Başınsa əyilmədən
Ərşə-kürşə dəyibdi.

Sən gələn hər fəsillə
Göyərib yazlanmısan.
Tariximin gözəli!
Nə sirrdir əsrlərlə
Zirvədə nazlanmısan.?!

Səni çapmaq istəyənlər
Nə adını, nə dadını
Şöhrətinin zirvəsindən
Qopara bilməyibdi.
Zirvələrdən də uca
Ucalıqda məkan salan
Başındansa
Tel apara bilməyibdi.

Öz yerində, məkanında
qışlanmısan, yaylanmısan.
Səni topa tutanların
Arxasınca
İstehzayla gülə-gülə
Məğrur-məğrur boylanmısan.

Sərvətinə tamah salan
Qəlbi pozğun
Bəd əməlli qarğa-quzğun,
Dəli başlı qanlı çarlar,
Şah qacarlar,
Sonluğunu səndə tapib.
Polad nallı atlarını geri çapıb.
Atları sal qayalarda
nal tökübdür.
Özləri də
Ucalığın qarşısında
Baş əyiblər
Diz çökübdür...

Çəkinmədin səni sıxan
Nə payızdan, nə də qışdan.
Şuşa adın, Şüşə adın
Ləkəsizdir yaranışdan...

Nağıllarda olduğu tək,
Bir tilsimli şüşədədir
Eşq sehirli şirin canın.
Qürurundan, sevdasından
Ucalmısan zirvələrdə
İgid Pənahəli xanın!..

Həm də ki, sən
Ulu Tanrı
Dərgahında yaranmısan.
Əsrlərdir zirvələrdə
Tufanların qucağında,
Tufanlarla bəslənmisən,
Tufanlarla daranmısan!...

Elə buna görə də sən
Yaranandan Xan Şuşasan!
Canımızda Can Şuşasan!
Qanımızda qan Şuşasan!...

Ürəyinin atəşindən
Qışdonmaz zivələrdə.
Afrikadan, Asiyadan
Fəsil-fəsil uçub gələn
Quşqonmaz zirvələrdə
Qalaların qalasısan.
Bu torpaqda yaranmısan
Bu torpaqda qalasısan!...

Tarix boyu bəzəmisən.
Bəzəyirsən,
Güneyi sən, Quzeyi sən!
Qədim Odlar Yurdunun
Bəzəyi sən, düzəyi sən!
Anam Şuşa Qalası!
Tanrının əlləriylə
Qövsi-qüzeh ilmələrlə
Əsrlərdir göy üzündə toxunan
Hanam ŞUŞA QALASI..

Bircə günün içində
İki yüz qırx yaşında
Sən qürub anı oldun.
Sən xəyanət qurbanı,
Xain qurbanı oldun.
Nyə bu təhlükəni,
Nədən duya bilmədik?..
Səni qoruya bilmədik.
Dəli başlı çarların,
Qanlı şah QACARLARİN
ƏLİYLƏ DEVRİLMƏDİN,
Yeminə çevrilmədin.
Ancaq xain əlilə
İkiyüz qırx yaşında
Sən qürüb anı oldun,
Casus qurbanı oldun.

Dağ çəkildi köksünə,
Lənət dedik o aya,
Nifrət etdik o günə...
Düz otuz il yatmadıq,
Həsrət qaldıq üzünə,
Məğrur Qızıl Qayana,
nazlı Cıdır düzünə.
Ancaq səni nə bir an,
Nə də bir gün unutduq.

Səni ucuz tutmadıq,
Biz Xarıbülbülünü,
Daşaltını unutmadıq!

Qoymarıq ki, bir yerin
Qıymarıq ki, bir yerin
Olsun salxaq, ya əyik!
Səni dirçəldəcəyik!
Yenə Azərbaycanın
Ən şəfqətli, şəfəqli

Səhəri olacaqsan!
Sən dünyanın ən gözəl
şəhəri olacaqsan!
Bu qarşımızdan gələn
İlk bahar, yazımızdır!
Sözümüz imzamızdır!"...

Mən də elə həmən gün,
Ayna bulaqların tək,
Sal daşlarından sızdım,
Qayalarından sızdım.
"Şuşam mənim" şeirimi
Sənin adına qoşdum,
Sənin adına yazdım:

"Başına, daşına biz dörd
Dolana - dolana gəldik.
Qanı axan ürəyimiz,
Ovcumuzda xonça kimi,
Odlana - odlana gəldik.
Qaya - qayam, daş - daşam mənim,
Şuşam mənum, Şuşam mənim.
Uğurlu qəzan mübarək!
Yağıya cəzan mübarək!

İgidlərin daşa-daşa,
Can verdilər dağa - daşa.
Buludlardan tuta-tuta,
Göyə dırmaşa - dırmaşa,
Arzuları çatdı başa!...
İndən belə qoynundakı
Səhər mənim, axşam mənim.
Şuşam mənim, Şuşam mənim!
Şimşək kimi çaxa - çaxa,
Qayalara çıxa - çıxa,
Zirvələrə qalxa - qalxa,
Azərbaycan əsgəri
Çiynində şəhid qardaşı,
Daşnak ilə əlbəyaxa!
Ürəyimdə günəş mənim,
Ruhumda ehtişam mənim,
Şuşam mənim, Şuşam mənim

Qalib millət busat qurdu!
Qalib ölkə Odlar Yurdu!
Qalib əsgər, qalib Ordu!
Qalib ALİ BAŞ KOMANDAN!
Güclü tufandan, vulkandan.
Belə tarix, belə dövran,
Belə ömür, yaşam mənim!
Şuşam mənim, Şuşam mənim!"..
Bu gün danışan, dinən
Ancaq sənin dilindir,
Danış, ay Şuşa danış.
Bu gün sənin günündür,

Bağışla, bu məqamda,
Sənin bu ad ilində,
Sənin bu şad ilində.
Sənin bu ad günündə,
Sənin bu şad günündə
Bir od yaxdı ürəyimi,
Bir ah sıxdı ürəyimi,
Dəlib keçdi kürəyimi....
İyirminci yüz ilin
Qanlı bir ay günündə,
92-ci ilin
8-i may günündə
Tarixində olmayan
Qəzyə-qədər baş verdi.
Ağardıb deyəmmədik

Biz heç kimə bu dərdi.
Daşnak faşist qrdusu
Müqavimət görmədən
Gəlib içinə girdi,
Günün günorta çağı,
İtirdik Qarabağı.
Bilmədik bu nə "şey"di,
Bilmədik bu nə "zad"dı,
Vəzifəli bir məmur
Zirvələrin Xan tacı

Əlçatmaz Sən Şuşanı
Torba-torba qızıla,
Kisəylə pula satdı!...
Sən çox-çox dağ aşmısan,
Sən çox-çox daş aşmısan.
İki əsr, qırx ili
Xan kimi yaşamısan.
O gün isə ilk dəfə,
Sən çevrildin hədəfə.
Bu gün isə deyirik:
"Əfsus, əfsus, çox əfsus,
Düşməndən qorxuludur,
İçimizdəki casus!"
Mat qaldı ahılın da,
Lal-mat oldu gəncin də
Torpağın da, daşın da.

Altında silkələnən
Yer qatını unutmadıq.
ÜStündə nərə çəkən
Göy qatını unutmadıq.
Üzümüz astar oldu,
Astarımız üz oldu.
Gündüzlərimiz gecə,
Gecəmiz gündüz oldu...
Pənahəli Xanın ruhu,
Molla Pənahın ruhu
Bizi bir an tərk etmədi.
Xurşud Banu Natəvanın
Haqdır vuran ruhunun
Ovunmayan harayı
Qulağımızdan getmədi!...
İçimizdə zümzümə
Üzeyrin hər bəstəsi,
Dilimizdən düşmədi
"Qarabağ Şikəstəsi."
Həsrətin ilə yandıq,
Həsrətinlə soyuduq.

Həsrətinlə oyandıq,
Həsrətinlə uyuduq.
Ürəyimiz döyündü,
Kamanında, tarında...

İki min iyirminin
səkkiz noyabrında
Qalib Ali Baş Komandan,
Qadir Ali Baş Komandan,
Dövlətçilik tariximdə
Nadir Ali Baş Komandan
(Onun bir əli yerlə,
Bir əli də göylədi).
Həmin gün təmkin ilə,
Qürur ilə söylədi:
"Gəldik Şuşa! Sən azadsan!
Sən əvvəlki Şuşasan!
Həmin Pənahabadsan!

Gövhər Ağa məscidindən
Ucalan azan mübarək!
Ay-ulduzlu paşam mənim!
Şuşam mənim,
Şuşam mənim!

Yetişdi vüsalın dəmi,
Soyun əynindəki qəmi.
Göy üzündə üzən gəmi,
Göylərlə baş - başam mənim!
Şuşam mənim, Şuşam mənim.

Bəzənsin gəlinin, bəyin,
Səslənsin kamanın, neyin.
Toy - bayram donunu geyin!
Toy - bayramla qoşam mənim,
Şuşam mənim, Şuşam mənim.

Zər - zinət yamacı, yalı,
Qızdan, gəlindən həyalı.
Hər bir sərvətdən bahalı...
Qiymətli daş - qaşım mənim,
Şuşam mənim, Şuşam mənim.

Xarıbülbülünə qurban,
Çilçıraq gülünə qurban.
Sönməyən külünə qurban!
Soyuqluqdan haşam mənim,
Şuşam mənim, Şuşam mənim!

Solmaz gülüstan, gülzarsan,
Sən qışda da ilk baharsan!
Dünya var olduqca varsan.
Dünyaca tamaşam mənim,
Şuşam mənim, Şuşam mənim!

Sənsiz yaşaya bilməzdik,
Nə də sevib - sevilməzdik.
Çalıb, oxuyub, gülməzdik!
Qəlbimdə zər qişam mənim,
Şuşam mənim, Şuşam mənim!

Qəhrəmanlar yetirən,
İldırımlar ötürən...
Günəşdən köz götürən,
Şimşək qəbzə maşam mənim,
Şuşam mənim, Şuşam mənim!

Havan baldır, suyun baldır,
Bir ağız səsini qaldır!..
Eşidən deyər xəyaldır!
Cənnət, behişt guşəm mənim,
Şuşam mənim, Şuşam mənim!

Bu ay sənin ayındır,
Bu il sənin ilindir!.....

Başından keçənləri
Min il də yazsaq bitməz.
Əfsanəsən, nağılsan.
Yazıldıqca yazılan
Təsvirin sona yetməz.
Bütün el aşıqları,
Dastanlar yazanları,
Bütün xalq şairləri
Bütün türk ozanları
Bir məclisdə yığışıb
Deyib danışsalar da,
Başına gələnləri
Uzandıqca uzanar,
Ancaq axıra yetməz.

Milli VÜQAR rəmzimiz,
Milli qürur rəmzimiz!
Dünyanın sinəsinə qoyulan
ilk izimiz,
Çəkilən yolumuzsan.
Tarix sənədlərinə
Atılan ilk imzamız,
Çəkilən qolumuzsan!
İlk məhəbbət nağılı!
Sən bitməyən dastansan,
Nöqtəsiolmayacaq
Milli mənzum romansan!

Mədəniyyət tarixim,
Sən ODLAR DİYARINDA
Şəhərlər arasında
İlk milli QƏHRƏMANSAN!...

***Bakı, 10 yanvar 2022 il.***



***P.S. Əzizim Əlirza bəy! Sizi salamlayıram. Sizinlə razılaşdırmadan şeiri təqdim etdiyim üçün üzrlü hesab edin. Poema heç yerdə dərc edilməyib. Həmişə tükənməz hörmət və ehtiramla:***

**Sizin Ramiz DUYĞUN**
***Bakı, 3 avqust 2022-ci il***